

*- Yaxşı iş şəraiti, möhkəm maddi-texniki baza hələ qələbə deyil. Uğur qazanmaq üçün həm də könül verdiyin sənətə məhəbbətin, zəhmətsevərliyin, mübarizliyin və təşkilatçılıq bacarığınla fərqlənməlisən.*

# Etìmadı doğrultmaq üçün

Etimadı doğrultmağa çalışan hər bir adam belə düşünməli, işin çəmini tapmalı, fəaliyyətini bu istiqamətə yönəltməlidir...

Balakən rayon Bülbül adına incəsənət məktəbinin direktoru Arifə Tağıyevanı dinlədikcə onun məqsədinə nail olacağına şübhə yeri qalmır.

Məktəbdə çoxdan çalışır. 25 ildir ki, fortepiano müəllimidir. 8 il fortepiano şöbəsinin müdiri, 8 il musiqi məktəbinin direktor müavini olub. 2007-ci il avqustun 8-dən nazirliyin əmri ilə direktor vəzifəsinə yüksəlib.

Məktəb 1966-cı ildən fəaliyyət göstərir. Arxada qalan illər ərzində xeyli inkişaf edib. Əgər ilk vaxtlar burada 9 müəllim çalışır, 3 ixtisas üzrə 54 nəfər şagird təhsil alırdısa hazırda bu göstərici aşağıdakı kimidir: 47 nəfər müəllim, 320 şagird və 8 ixtisas - tar, pianino, kamança, qarmon, klarnet, nağara, xoreoqrafiya və rəssamlıq üzrə.

-Yetirmələrimizin uğurları çoxdur. Bu nailiyyətlərin qazanılmasında qabaqcıl müəllimlərimiz Cəfər Nəcəfov, Çiçək Səfərova, Məhəmməd Atayev, Pirdas Əlibəyova, Sabir Atayev, Əlövsət Məmmədov, Əbdüləzim Atayev və başqalarının xüsusi zəhmət payı vardır. Yeri düşmüşkən qeyd edim ki, müəllimlərimizin 2-3 nəfərini çıxmaqla qalanlarının hamısı öz yetirmələrimizdir.

Gördüyünüz kimi, məktəbimiz 3 il əvvəl təmir olunsa da burada yenidənqurma işlərinə çox ehtiyac var. Burada əsaslı təmir işi aparılmalıdır.

Kollektivimiz isə yenə də eyni amalla çalışmağı qarşıya məqsəd qoyub. Balalarımızın təlim-tərbiyəsi, onlara musiqimizin incəliklərinin aşılanması, istedadların üzə çıxarılması və s. İnanıram ki, istəyimizə layiqincə nail olacaq, bizə göstərilən etimadı doğruldacağıq...

**E.HƏSƏNQIZI**



